# Cümhuriyyət dövrü poeziyasında turançılıq

**Ülviyyə Abdullayeva**
Xəzər Universiteti. Azərbaycan.
E-mail: ulviyya.abdulla1@gmail.com

**Annotasiya.** Məqalədə Cümhuriyyət dövrü poeziyasında türkçülük və turançılıq problemləri araşdırılır. Qeyd olunur ki, XX əsrin əvvəllərində yüksələn xətlə gedən milli kimlik arayışları və siyasi düşüncənin formalaşması əsrin ikinci onilliyində yavaş-yavaş formalaşmağa başlayır. Əsrin əvvəllərindən ədəbi və ictimai fikirdə baş verən milli kimlik özünün yeni mərhələsinə daxil olur. Xüsusilə, poeziyada milli düşüncə bütün diqqətini istiqlal, türkçülük və turançılığa yönəldir. M.Hadi, Ə.Cavad, A.Şaiq, Ə.Müznib, Davud, Zülfüqar bəy, C.Cabbarlı, Əliyusif, S.Mümtaz və b. yaradıcılığında Azərbaycan bayrağı, türkçülük, turançılıq tərənnüm olunur. Lakin bu proses çox davam edə bilmədi, Cümhuriyyətin süqutu ilə yeni bir tarixi şərait yarandı və bu tarixi şəraitdə milli düşüncə, türkçülük, turançılıq ədəbiyyatın mövzusu olmaqdan kənarda qaldı. Bütün bunlara baxmayaraq, bu dönəmdə milli düşüncə, türkçülük yolunu tutanlar 37-ci il repressiyasının qurbanına çevrildilər. Onların həbsinin səbəbi kimi pantürkizm, panislamizm, panturanizm kimi amillər göstərildi və milli düşüncə daşıyıcısı olmaları onların məhvi ilə nəticələndi.
**Açar sözlər:** Cümhuriyyət, poeziya, milli kimlik, türkçülük, turançılıq

**Məqalə tarixçəsi:** göndərilib – 12.02.2022; qəbul edilib – 22.02.2022

# Turanism in the poetry of the Republican period

**Ulviyya Abdullayeva**
Khazar University. Azerbaijan.
E-mail: ulviyya.abdulla1@gmail.com

**Abstract.** The article examines the problems of Turkism and Turanism in the poetry of the Republican period. It is noted that in the early twentieth century, rising national identity and the formation of political thought began to take shape slowly in the second decade of the century. References to national identity, which have been present in literary and public opinion since the beginning of the century, are entering a new phase at this stage. In particular, in poetry, national thought focuses on independence, Turkism and Turanism. M.Hadi, A.Javad, A.Shaig, A.Muznib, Davud, Zulfugar bey, J.Jabbarli, Aliyusif, S.Mumtaz and others. The Azerbaijani flag, Turkism and Turanism are glorified in his works. However, this process did not last long, with the collapse of the Republic, a new historical situation emerged, and in this historical context, national thought, Turkism, Turanism ceased to be the subject of literature. Despite all this, during this period, those who followed the path of national thought and Turkism became the victims of the repression of 1937. Factors such as pan-Turkism, pan-Islamism, pan-Turanism were cited as the reason for their arrest, and their national ideology resulted in their destruction.
**Keywords:** Republic, poetry, national identity, Turkism, Turanism

**Article history:** received – 12.02.2022; accepted − 22.02.2022

## Giriş / *Introduction*

Cümhuriyyət dönəmində poeziya hadisələrə ən çevik və adekvat cavab verən bədii formalardan biri olur. A.Şaiq, Ə.Cavad, C.Cabbarlı, Ə.Müznib, Umgülsüm, Davud, Əliyusif, Zülfüqar bəy, S.Mümtaz və onlarla şair yeni dövrü, xalqın qazandığı istiqlalı, onun bayrağını, ordusunu, türkçülüyü tərənnüm edirdi. Poeziyanın ən çox vurğu yapdığı tərənnüm obyektlərindən biri də Turançılıq idi. Bu dövrdə yazılan şeirlərdə vətən, millət, türklük, türkçülük, Turançılıq, bayraq, ordu, türk əsgəri və s. mövzular qırmızı xətlə keçir. Bu mənada Ə.Cavadın yaradıcılığı olduqca əhəmiyyətlidir. Cümhuriyyət və onun atributları ən yaxşı şəkildə onun yaradıcılığında öz əksini tapmışdır. Görkəmli alim Yaşar Qarayev “Cümhuriyyət dövrü və onun poeziyada yaddaşı: Əhməd Cavad” məqaləsində Cümhuriyyətin ən yaxşı şəkildə Ə.Cavad poeziyasında əks olunduğunu obrazlı şəkildə belə ifadə etmişdir: “İntibah” deyəndə ilkin xatırlanan Nizami olur. “Məhəbbət” deyəndə birinci Füzulinin adı çəkilir. “Cümhuriyyət” deyəndə yada hamıdan əvvəl Əhməd Cavad düşür. Üçrəngli bayraq emblemi var tariximizdə. Üçrəngli poeziya bədii yaddaşa hamıdan əvvəl Əhməd Cavadın qələmi ilə həkk olunmuşdur” [7, s.4].

## Əsas hissə / *Main Part*

Ə.Cavad hələ I Dünya savaşı zamanı Türkiyədə baş verən proseslərdə yaxından iştirak etmiş, Balkanlarda türklərin qaçqın düşməsindən üzülmüş, daha sonra Qarsda erməni-rus qoşunlarının qaçqın saldığı türklərə öz yardım əlini uzatmışdı. Cəmiyyətin yolu ilə o, tez-tez Türkiyəyə gedərək qaçqın uşaqlarını Azərbaycana götürməkdə yardımçı olmuşdu. Bu zaman burada gördüklərindən dəhşətə gələn şair bir neçə şeirində Türklüyü, Türk bayrağını tərənnüm etmişdir. “Çırpınırdı Qara dəniz” şeirində türk bayrağını ən ucalarda görən şair “Ah!..” deyərdim, heç ölməzdim, //Düşə bilsəm ayağına”, – deyə türk bayrağına sonsuz məhəbbətini bildirirdi. Şair “dost elindən ayrı düşmüş” Türk bayrağına salamını çatdırırdı:

*Dost elindən əsən yellər,*
*Bana şeir, salam söylər!*
*Olsun bütün bizim ellər*
*Qurban Türkün bayrağına!*
*Yol ver Türkün bayrağına! [4, s.140]*

Şeirlərində daim vətən sevgisini, Cümhuriyyəti, onun simvollarını tərənnüm edən Ə.Cavad sovet dövründə buna görə sıx-sıx tənqidlərə məruz qalmış, həbs edilmiş və nəhayət, Cümhuriyyət şairi olduğu və onu tərənnüm etdiyi üçün repressiyaya uğramışdır. Ə.Cavadın bu illərdə yazdığı şeirlərində vətən, bayraq, ordu ilə bağlı şeirlərlə yanaşı, türklük, türkçülük və Turançılıq da başlıca yer tuturdu. Onun bu illərdə yazdığı “Azərbaycan bayrağına”, “Bismillah”, “Röyasını görmüşdüm”, “Milli bayrağımıza”, “Ey əsgər”, “İstanbul”, “Qalx”, “Gəlmə”, “Ey əsgər”, “Türk ordusuna”, “Şəhidlərə” və s. şeirlərində üçrəngli bayraq, türklük, turançılıq motivləri tərənnüm və təsvir edilir. “Azərbaycan bayrağına” şeirində belə bir müəllif qeydi vardır: “İngilislərin Bakıya gəlişindən sonra birinci dəfə Bakıya getdiyim vaxt – 10 aprel 1919-da parlament binası üzərində dalğalanan milli bayrağa söylənilmişdir” [4, s.127].

Şair burada Azərbaycan bayrağını, Cümhuriyyət ideallarını Turan ideyasını tərənnüm edərək, bu bayrağın şanlı tarixi ilə öyünür. Şairin tarixə müraciətən Quzğun dəniz, qoca Elxan, Elxan övladı, Qayi xan və b. obrazlara müraciəti müstəqilliyini yenicə qazanmış xalqın böyük bir tarixi keçmişinin olduğunu göstərir. Azərbaycan bayrağının dalğalanmasından məmnun olan şair bu bayrağın dalğalanmasını böyük bir qənimət hesab edir:

*Türküstan yelləri öpüb alnını,*
*Söylüyor dərdini sana, bayrağım!*

*Üç rəngin əksini Quzgun dənizdən*
*Ərməğan yollasın yara, bayrağım!*

*Gedərkən Turana, çıxdın qarşıma,*
*Kölgən dövlət quşu, qondu başıma!*
*İzn ver gözümdə coşan yaşıma*
*Dinlətsin dərdimi aha, bayrağım! [4, s.127]*

Ə.Cavad “İstanbul” şeirində də “solğun üzlü”, “mavi gözlü”, “dalğın”, “ipək bayğın” İstanbulu vəsf edir və onun düşdüyü bu çətin durumu təsvir edir. Şair Turan elinin bu gözəl şəhərinin durumundan məyusluğunu ifadə edir:

*Yarəb, bilməzmidin qəlbimi sən də,*
*Ki, qırdın sazımın canlı telini?!*
*Doğuyorkən yeni bir ümid bəndə,*
*Neyçün məyus etdin Turan elini?!*
*Ah, ey solğun yüzlü, dalğın İstanbul!*
*Mavi gözləri ipək bayğın İstanbul?! [4, s.134]*

Ə.Cavad “Türk ordusuna” şeirində bu şanlı ordunun şücaətlərini vəsf edir, onun “Allahu-Əkbər” dağına çıxdığı günü yada salır və onun gəlişindən böyük qürur hissi keçirir. Şair şanlı Türk ordusunun Turandan rusu qovmasını böyük tarixi hadisə kimi qiymətləndirir:

*Ey şanlı ölkənin şanlı ordusu,*
*Unutma Qafqaza girdiyin günü!*
*Gəlirkən qovmağa Turandan Urusu,*
*Ayağını Qara dəniz öpdümü?! [4, s.143]*

Əsərlərində poetik turançılığı tərənnüm edən şairlərdən biri də Umgülsüm Sadıqzadə (1900-1944) idi. O, gənc olmasına baxmayaraq, şeirlərində milli ruh, türkçülük, turançılıq, cümhuriyyətçilik, vətənpərvərlik motivləri əsas yer tuturdu. Umgülsüm Bakının Novxanı kəndində anadan olmuş, kiçik yaşlarından şeirlər, hekayələr yazaraq “İqbal”, “Dirilik”, “Qurtuluş”, “Açıq söz”, “Yeni iqbal”, “Məktəb”, “Azərbaycan” və sair qəzet və jurnallarda dərc olunmuşdu. 1917-ci ildə yazıçı, tənqidçi Seyid Hüseynlə ailə qurmuşdur. Milli ruhlu şeirləri, əsasən, Cümhuriyyət dönəmində çap olunmuşdur. Aprel işğalından sonra şairin şeirləri mətbuat orqanlarına yol tapa bilməmişdir. Yalnız 1918-ci ildə İstanbulda Azərbaycan mühacirlərinin tərtib etdiyi “İstiqlal uğrunda” məcmuəsində milli və istiqlal şeirləri dərc edilmişdir. Bu məcmuədə ondan başqa Ə.Cavadın, Gültəkinin də şeirləri getmişdir. Gültəkinin kimliyi bəlli olmadığından elə də diqqəti cəlb etməmişdir. Umgülsümün də şeirlərinin burada çap olunması elə bir rezonans doğurmamışdır. Görünür, Umgülsümün sovet dövründə şeirlər çap etdirməməsi onu unutdurmuşdu. Bu zaman ədəbi tənqidin diqqəti məcmuədə getmiş Ə.Cavadın şeirlərinə yönəlmiş və onu tənqid etmişlər. Lakin Umgülsüm qarşıdan gələn repressiyadan yaxa qurtara bilməmişdir. 1937-ci ilin 15 iyununda həyat yoldaşı Seyid Hüseyn həbs edildikdən sonra onun da həbsinə qərar verilmişdi. 11 noyabr 1937-ci ildə həbs edilən şair 20 may 1938-ci ilədək Bayıl həbsxanasında cəza çəkmiş və SSRİ XDİK yanında xüsusi müşavirənin 9 aprel 1939-cu il tarixli qərarına əsasən, “Vətən xaininin həyat yoldaşı kimi səkkiz il müddətinə azadlıqdan məhrum edilmişdir” [8, s.141]. Temlaq islah əmək düşərgəsində cəza çəkən Umgülsüm 1944-cü il aprelin 15-də azad olunsa da, Bakıda uşaqlarının yanında yaşamağa icazə verilmir və Şamaxıya göndərilir. Lakin həmin ilin sentyabrında vəfat etmişdir.

Umgülsümün poetik yaradıcılığı o qədər də geniş deyil; bunun bir neçə səbəbi var. Onlardan biri budur ki, şeir və poemalarının bir qismi itmişdir. İkincisi, ondan ibarətdir ki, milli ruhlu şeirlə-

rini Azərbaycanın işğalından sonra dərc etdirmək mümkünsüz olduğundan o şeirlər sandıqda qalmışdır. Lakin Cümhuriyyət dövründə yazdığı şeirləri türkçülük və turançılıq istiqamətində yeni bir səhifə açmışdır. Umgülsümün əsas tədqiqatçılarından biri Aydın Hüseynzadə də onun yaradıcılığını üç yerə bölür və ən məhsuldar dövrü kimi 1916-1920-ci ili götürür. Umgülsümün yaradıcılığının ikinci dövrü kimi 1920-1937, üçüncü dövrü kimi isə 1937-1944-cü illər müəyyənləşdirilir [6, s.149]. Şairin dərc edilən əsərlərindən də görünür ki, sovet dövründə onun şeirləri çox azdır, 1937-1944-cü illərdə isə 11 "Bayıl şeirləri" və gündəlik, ərizələrdən ibarətdir. Bütün hallarda Umgülsümün yaradıcılığının ən parlaq dövrü Cümhuriyyət dövrü olmuşdur. Bu dövr həm də poeziyada yeni start götürən milli ruhun poetik ifadəsini əks etdirir. Şairin bu illərdə yazdığı "Turan düdüyü", "Səs verəlim", "Ey türk oğlu", "Çəkil, dəf ola", "Əsgər anasına", "Yolunu bəklərdim", "Builki mayısda", "Yurdumun qəhrəmanlarına" və s. şeirlərində lirik qəhrəman milli düşüncəni, türkçülük və turançılıq ideyasının daşıyıcısı kimi verilir. Gənc şairin türkçülük və turançılığa bu qədər önəm verməsi onun aldığı tərbiyədən və düşdüyü mühitdən irəli gəlirdi. M.Ə.Rəsulzadənin əmisi qızı olması və Seyid Hüseynin həyat yoldaşı, eləcə də "Türkləşmək, müasirləşmək, islamlaşmaq" üçlü formulunun bayrağımızda öz əksini tapması gənc şairin yaradıcılığına da öz təsirini göstərmişdir. Romantiklərin yaradıcılığında tərənnüm edilən bu mövzular Umgülsümün də yaradıcılığının əsas xüsusiyyətinə çevrilir. Bu cəhətdən "Nargin əsirlərinin dilindən" qeydi ilə yazdığı "Turan düdüyü" şeiri özünün vətənpərvərliyi və turançılıq ideyasının tərənnümü ilə fərqlənir. Məlumdur ki, I Dünya savaşı zamanı ruslar tərəfindən əsir alınaraq Azərbaycana gətirilən və Nargin adasına sürgün edilən əsirlərin vəziyyəti o zaman cəmiyyəti çox narahat etmişdi. Çünki burada əsirlərlə qeyri-insani davranışlar olur, onları ac-susuz saxlayır, xəstələnənlərə pis münasibət bəslənilirdi. Onların bu vəziyyəti şairi dərindən düşündürdüyündəndir ki, "Turan düdüyü" şeirində bu dərdləri söyləyir:

*Məskənimiz həp fəlakət bucağı,*
*Bəstərimiz fırtınalar qucağı,*
*Sönmüşmüdür əcəb Türkün ocağı*
*Anadolu nerdə, Turan nerədə? [11, s.55]*

Umgülsüm Nargin adasının əsirləri kontekstində türk dünyasının düşdüyü vəziyyəti anladır və bundan çıxış yolları arayır. Anaların ağlar qalması şairi narahat etdiyindəndir ki, cavanları, igidləri axtarır ki, türklüyün gəmisini sahilə çıxarda bilsin. Qeyd etmək lazımdır ki, bu şeirin məzmunu ilə bağlı müxtəlif mülahizələr mövcuddur. Ədəbiyyatşünas T.Salamoğlu şeirin məzmununu Azərbaycan istiqlalı ilə bağlayaraq yazır: "Umgülsüm Bakı kommunası dövründə Azərbaycanın mahiyyətcə müstəmləkə rejimi altında inləməsini, hədsiz fəlakətlərə düçar olmasını, Azərbaycan xalqının həqiqi mənada genosidə məruz qalmasını, sinfi mübarizənin əsl mahiyyətini üzə çıxarır, "məskənimiz həp fəlakət bucağı", "bəstərimiz fırtımnalar qucağı", – deyərək fəryad qoparır" [10, s.89]. A.Bayramoğlu isə tədqiqatçının bu təhlili ilə razılaşmır: "Yuxarıdakı təhlildən aydın olduğu kimi, "Turan düdüyü" şeirinin Bakı kommunası ilə heç bir əlaqəsi yoxdur. Qəzetdə şeirin "Nargin əsirlərinin dilindən" qeydi ilə çapa verilməsi də bunu təsdiq edir" [2, s.17].

Umgülsümün "Səs verəlim" şeiri isə "Türk qızlarına" qeydi ilə çap olunmuşdur. "Açıq söz" qəzetinin 18 may 1918-ci il sayında dərc edilən şeirdə millətin bir fərdi, övaldı kimi türk qızlarının üzərinə düşən vəzifəni anladır, "türklüyün bayrağını yüksəltmək", "qafqaslıq" naminə hamını səs verməyə çağırır. Bu çağırışda türklüyün tarixinə gedir, şanlı türk tarixinə müraciət edir:

*Türklük deyil, biz türklüyün özüyük,*
*Millətimiz bizim ilə canlanır.*
*Qazanalım, Fateh xanın qızıyıq,*
*Türklük adı fütuhatla sanlanır [11, s.57].*

Umgülsüm "Ey türk oğlu", "Çəkil, dəf ola", "Əsgər anasına", "Yolunu bəklərdim", "Builki mayısda" və s. şeirlərində də türklüyü, turançılığı, onların şanlı keçmişini tərənnüm edir. Onun

fikrincə, türk oğlu yadlara heç zaman boyun əyməməli, hər bir türk oğlu öz vətəninin qəhrəmanıdır və onu göz bəbəyi kimi qorumalıdır. “Ey türk oğlu” şeirində türk oğluna müraciət edərək onu Turanıln qəhrəman oğlu hesab edir, yüz illərdi “ayaqlanmasına” “hıçqırmasına” daha dözə bilmir, “biləyinin düşmənə qılınc tutmasını” istəyir. İstəyir ki, Türk oğlu “öz ürfanıyal, biləyi və gücü” ilə vətəninə, yurduna qala olsun, Qafqasiyanın ən böyük, uca dağlarına onun adı yazılsın, onun adı ilə tanınsın. “Səni vəhşi tanıyan o mədəni canavar // Məğlub olsun, xar olsun, intiqamlara alınsın // Türk bayrağı o zaman göyü üzündə parıldar” [11, s.59], – sözlərindən belə məlum olur ki, şair bütün türklüyü düşünür və Qərbin (mədəni canavar) türklüyün üzərinə hücumlarını pisləyir. Şairin ən ümdə vəzifəsi Türkçülüyü, Turançılığı yaşatmaq və bütün türkləri bu amal uğrunda bir yerə toplamaq, gücünü göstərməkdir:

*Ey türk oğlu, sən ey qəhrəman oğlu Turanın,*
*Şanlı, yüksək babanın öyüdünü unutma,*
*Sən də yürü o yolu.*
*Yürü, əvət özünü heç bir şeydən qorxutma;*
*Yürü, əvət bir daha təməddünün, ürfanın*
*Ülvi duyğular versin Türkün həssas qəlbinə*
*Hörmət, izzət aldırsın böyük Turan elinə [11, s.58].*

Umgülsüm özünü Turan övladı hesab edir, onun poeziyasının xəritəsi çox genişdir; lirik qəhrəmanı daim türklük duyğusu ilə nəfəs alır və yaşayır. “Əsgər anasına” şeirində analara, valideynlərə üz tutaraq övladlarını müqəddəs vətən borcunu yerinə yetirmək ruhunda böyütməyə çağırır, onların hərbə, döyüşə getməsinə mane olmamağa səsləyir. Çünki onlar “Vətənin bəkçiləri”dir və hər biri “cəsur bir qəhrəman olacaq”. Onların hər biri yurdunu qurtarmaq üçün qəlblərində saf və sağlam türk duyğusu yaşadır. “Çəkil, dəf ola” şeirində isə şair Türk yurduna göz dikənlərə qarşı etiraz səsini ucaldır. “Ey buzlu şimaldan qopan ruzigar!” sözlərindən məlum olur ki, şairin bu etirazı Azərbaycan xalqının istiqlalına göz dikən imperiyayadır. Şair bu “murdar çöhrə”ni, “əbus sima”nı vətənində görmək istəmir, onu sevmədiyini, nifrət etdiyini poetik şəkildə ifadə edir. Lirik qəhrəmanın fikri ciddidir, kini, nifrəti ilə düşməni vətənindən dəf etməyə gücü çatar, nəfəsi ilə onu boğar.

Umgülsüm Türk ordusuna ithafən yazdığı “Yolunu bəklərdim” şeirinin yazılması ilə bağlı qeydində yazır: “Bu şeir bir il qabaq (1918-ci il) qanlı mart hadiseyi əliməsindən Azərbaycan türk islamlarının yaxasını düşmən əlindən almaq və ölümdən qurtarmaq üçün qardaş, arkadaş deyə-deyə dərə, təpə, dağ, daş aşaraq yardıma gələn şanlı Türkiyə ordusuna ithafla yazılmışdır” [11, s.62]. Şair xanimanı yıxılan Türk elini düşmən əlindən qurtaran qəhrəma türk əsgərlərinə öygülər yağdırır, “üzü qara düşmənə” bəddualar edir, gözlədiyi igid qardaşlarının onları qurtardığına sevincini ifadə edir. “Builki mayısda”, “Yurdumun qəhrəmanlarına”, “Bir qız üçün”, “Bayrağım enərkən”, “Bən”, “Hicran” və s. şeirlərində də türk dünyasının fəryadını çatdırır və onun istiqlal uğrunda verdiyi mücadiləni tərənnüm edirdi. “Bən” şeirinə M.Ə.Rəsulzadənin “Bir kərə yüksələn bayaraq bir daha enməz!” sözlərini epiqraf gətirən Umgülsüm yurdunu yetim qoyan kommunistlərə etiraz səsini ucaldır, onları ittiham edir. Özünü istiqlalın ilk qurbanlarından biri hesab edən şair xalqın milli bayrağının yenilməz olduğunu və böyük tarixi keçmişə malik olduğunu qürurla bildirirdi.

Cümhuriyyət dövründə poeziyada Turançılıq və onun komponentləri (vətənpərvərlik, ordu marşları, türkçülük və s.) gənclərin yaradıcılığında daha çox nəzərə çarpır. Türk şairləri M.Ə.Yurdaqul, N.Kamal, T.Fikrət, Z.Göyalp və başqalarının yaradıcılığındakı milli ruh yazılan hərbi marşlarda da öz əksini tapır. Bu dövrdə hərbi marş xarakterli şeirlərin də çap olunması milli ruhdan, türkçülük və Turançılıq ruhunun ifadəsindən irəli gəlirdi. Abbas Ağa Qayıbovun (Nazir) “Miralay Cəmil Cahid bəyin mədhində”, Məhəmməd Əmin oğlu Salman Mümtazın “Öyün, millət”, Ə.Müznibin “Yuğ qığılcımı”, “Yanğın”, Davudun “Məqsədimiz”, “Əsgər şərqisi”, “Bir əsgərin xitabı”, “Azərbaycan ordusuna”, “Atalara”, “Millətimə”, İbrahim Şakirin “Türk ordusuna”, Mətləb oğlu Abutalıbovun “Türkün dərdi”, Ə.Bağırlının “Yüz ildi”, Əliyusifin “Azərbaycanlıya”, “Bayraq”,

"Getmə", "Bir türk yolçusu deyir ki", "Qarabağ xainlərinə", Cəlal Sahirin "Qafqas türküsü", Məhəmməd Ümid Gəncəlinin "Azərbaycan. Vətən şərqisi", Dərdli şairin "Yürəklərdə" və s. onlarla şeirlərdə türklük, turançılıq, vətənçilik, yurdu, vətəni qorumaq amalı təsvir edilirdi. Cümhuriyyətin Avropaya təhsil üçün göndərdiyi tələbələrdən biri, sonralar Azərbaycana qayıtdıqda Solovki adalarına sürgün edilən Əliyusif şeirlərində Vətənini vəsf etməklə qalmır, həm də onun şanlı Turan keçmişini, türklüyünü tərənnüm edirdi. "Qarabağ xainlərinə" şeirində Qarabağın göylərə ucalan həşəmətli dağlarını, qayalarını vəsf edir və buranı böyük bir mədəniyyət ocağı olaraq göstərir və onu "Azəri tacının ən şəşədar (parlaq – Ü.A.) alması" olaraq təqdim edir. Lakin xainlərin buna gözü düşmüşdür. Bundan qeyzə gələn lirik qəhrəman vətənin müdafiəsinə qalxaraq "Çəkil, ey çöhreyi-əlması dutan sənc, çəkil // Çəkil, ey əllərini, xəncərini qana yuyan", – deyə bütün varlığı ilə Vətənin müdafiəsinə qalxır.

"Bir türk yolçusu deyir ki" şeirində isə Azərbaycanı türk yurdu olaraq göstərir və "öksüz Şərq"də onun böyül bir tarixi keçmişə malik olduğunu, qaranlıq gecələrin artıq arxada qaldığını deyir. Şair əmindir ki, Qaf dağında yaşayan əfsanəvi Ənqa quşu kimi parlayacaq:

*Əvət, əvət, bu gün şərqə Kəbə olan bu ölkə*
*Yenə bir gün atəş ilə, alov ilə yanacaq,*
*Bütün Turan, oğuz nəsli, hətta bütün Şərq bəlkə*
*Yenə onu təqdis ilə ziyaratgah sanacaq [5, s.2].*

Davudun şeirlərində xalqın istiqlal mücadiləsi tərənnüm olunur və bu istiqlalın həyata keçməsini təmin etmək üçün yeni nəsillərin formalaşması yönündə vətənpərvərlik motivləri təsvir olunur. Bu şeirləri şərti olaraq "əsgər şeirləri", yaxud "hərbi marşlar" da adlandırmaq olar. "Bir əsgərin xitabı" şeirində əsgərin adından anasına müraciət edilir və onun ağlamaması istənilir. O xoşbəxtdir ki, əlində silah yurduna növbə çəkir, "namusuna, millətinə" gözətçilik edir. "Doğmadınmı sən bizləri bu gün üçün annəciyim // Axıtdığın göz yaşları bilməm neçin, annəciyim?", – deyə ona sual edən lirik qəhrəman "bir əsgər kimi öz yurduna yardım etmək"dən məğrurluq duyaraq "Siz salam qalın, annə, bən gedirəm orduma",-deyə anasını arxayın edir. Şairin əsərin dilindən anasına müraciəti olduqca uğurlu tapıntıdır; çünki, bir var bunu anaya bir başqası desin (bu cür şeirlər də yazılırdı!), bir də var, oğul anaya yurd, vətən, onlar üçün ölümə belə getməyə hazır olduğunu söyləsin. Davudun "Atalara" şeiri də, demək olar, eyni mövzuda yazılıb. Əgər bu şeirdə analara xitab olunursa, "Atalara" şeirində onlara müraciət olunur, artıq müstəqil olan Azərbaycanı qorumaq üçün əsgərlərin lazım olduğunu qətiyyətlə bildirirdi. Şair gəncləri əsgərlikdən qaçıran atalara, ziyalılar, oxumuşlara, qocalara, işçilərə üzünü tutaraq vətənin onları gözlədiyini qürurla bildirərək "Gənc oğlunu qadın kobi gizlətmə, // Türk adını təhqir etmə, kirlətmə, // Olmalıyız sınırlarda növbətçi, // Girəməsin yurdumuza yabanı", – deyə xalqı da buna çağırırdı.

Davud "Məqsədimiz" şeirində türk millətinin böyük bir tarixi keçmişə malik olduğunu təsvir edir. Lakin bu tarix birxətli olmamışdır; bəzən başqalarına qul olmuş, bəzən isə düşmənləri əzərək onları özlərinə qul etmişlər. Nə zaman ki, ruhdan düşürük, o zaman başqaları da bizi əzmək istəyir. Lakin bütün hallarda türklər hürr yaşamağı sevər, haqqını müdafiə edərlər:

*Amma yenə hürrüz biz,*
*Arayırız Türküstana gedən iz,*
*Qaldırmışıq üç boyalı bir sancaq,*
*Yüksələcək bu yerlərdə bu ancaq [3, s.2].*

## Nəticə / *Conclusion*

Cümhuriyyət dövründə poeziyanın istiqaməti istiqlalçılıq, vətənçilik, türkçülük, turançılığın təsvirinə yönəlmişdir. Əsrin əvvəllərindən ədəbi və ictimai fikirdə baş verən milli kimlik arayışları bu mərhələdə özünün yeni mərhələsinə daxil olur. Xüsusilə, poeziyada milli düşüncə bütün diqqə-

tini istiqlal, türkçülük və turançılığa yönəldir. M.Hadi, Ə.Cavad, A.Şaiq, Ə.Müznib, Davud, Zülfüqar bəy, C.Cabbarlı, Əliyusif, S.Mümtaz və b. yaradıcılığında Azərbaycan bayrağı, türkçülük, turançılıq tərənnüm olunur. Lakin bu proses çox davam edə bilmədi, Cümhuriyyətin süqutu ilə yeni bir tarixi şərait yarandı və bu tarixi şəraitdə milli düşüncə, türkçülük, turançılıq ədəbiyyatın mövzusu olmaqdan kənarda qaldı. Bütün bunlara baxmayaraq, bu dönəmdə milli düşüncə, türkçülük yolunu tutanlar 37-ci il repressiyasının qurbanına çevrildilər. Onların həbsinin səbəbi kimi pantürkizm, panislamizm, panturanizm kimi amillər göstərildi və milli düşüncə daşıyıcısı olmaları onların məhvi ilə nəticələndi.

**Ədəbiyyat / *References***

1. Bayramoğlu A. Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. Bakı: Elm, 2004.
2. Bayramoğlu A. Umgülsüm Sadıqzadə//Umgülsüm. Əsərləri. Bakı: Literpress, 2010.
3. Davud. Məqsədimiz. Azərbaycan, 1920, 2 mart.
4. Əhməd C. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005.
5. Əliyusif, Bir türk yolçusu deyir ki... İstiqlal, 1918, 28 may.
6. Hüseynzadə A. İstiqlal şairi Umgülsüm. Bakı: Çaşıoğlu, 2005.
7. Qarayev Y. Cümhuriyyət dövrü və onun poeziyada yaddaşı: Əhməd Cavad // Əhməd C. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004.
8. Qasımov C. Məhbus tərcümeyi-halı. Bakı: Səda, 2003.
9. Mehmetzade, M. Milli Azerbaycan Hareketi. Ankara: Azerbaycan Kültür Dernegi yayınları, 1991.
10. Salamoğlu T. Faciəli talelər. Bakı: Elm, 1998.
11. Umgülsüm. Əsərləri. Bakı: Literpress, 2010.

## Туранизм в поэзии в период Республики

**Ульвия Абдуллаева**
Университет Хазар. Азербайджан.
E-mail: ulviyya.abdulla1@gmail.com

**Резюме.** В статье рассматриваются проблемы тюркизма и туранизма в поэзии республиканского периода. Отмечается, что в начале XX века рост национального самосознания и формирование политической мысли начали медленно оформляться во втором десятилетии века. Отсылки к национальной идентичности, присутствующие в литературном и общественном мнении с начала века, на данном этапе вступают в новую фазу. В частности, в поэзии национальная мысль ориентируется на независимость, тюркизм и туранизм. М.Хади, А.Джавад, А.Шаиг, А.Музниб, Давуд, Зульфугар бек, Дж.Джаббарлы, Алиюсиф, С.Мумтаз и другие. В произведениях воспеты азербайджанский флаг, тюркизм и туранизм. Однако этот процесс длился недолго, с распадом республики возникла новая историческая ситуация, и в этом историческом контексте национальная мысль, тюркизм, туранизм перестали быть предметом литературы. Несмотря на все это, в этот период те, кто шел по пути национальной мысли и тюркизма, становились жертвами репрессий 1937 года. В качестве причины их ареста приводились такие факторы, как пантюркизм, панисламизм, пантуранизм, а их национальная идеология привела к их уничтожению.
**Ключевые слова:** республика, поэзия, национальная идентичность, тюркизм, туранизм